# Pedaqoji ədəbiyyatda "innovasiya" anlayışının mahiyyəti

**İranə Oqtay qızı Məmmədova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** elchin_mamedzade@hotmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. Y.T. Rzayeva,
p.ü.f.d., dos. M.Ə. Zamanova

**Açar sözlər:** innovasiya, yenilik, innovasiyanın tarixi, innovativ proses, innovasiyanın sferası, innovasiyanın potensialı, innovativ fəaliyyət

**Ключевые слова:** инновация, новшество, нововведение, история инноваций, инновационный процесс, инновационная сфера, инновационный потенциал, инновационная деятельность

**Key words:** innovation, innovation, innovation, history of innovation, innovation process, innovation sphere, innovation potential, innovation activity

XX əsrin 80-ci illərində informasiya-kommunikasiya texnologiyalarının sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinə inteqrasiyası tamamilə nəzəri xarakter daşıyan təhsilin əhəmiyyətini kölgədə qoydu. Təhsilin yeni məzmununun formalaşdırılması istiqamətində elmi-nəzəri tədqiqatlar start götürdü. Praktiki bilik və bacarıqları, şəxsiyyətyönlü və peşəyönlü səriştələri formalaşdırmağı təmin edə biləcək yeni təhsil standartları və kurrikulumların strateji hədəflərinin təhlilinə həsr olunmuş əsərlər meydana gəldi. Ali pedaqoji məktəblərdə kadr hazırlığı probleminin təkmilləşdirilməsi mövzusunda sanballı tədqiqat əsərləri istifadəyə verildi. İnnovativ pedaqoji iş sisteminin mahiyyəti və məzmununa dair elmi araşdırmalar aparıldı. A. Mehrabov (19, s. 302-321), Ə. Əlizadə (12), A. Abbasov (1), O. Həsənli (13), Ə. Paşayev və F. Rüstəmov (20, s. 107-113), Ə. Ağayev (4, s.11), F. Sadıqov (2, s. 440), F. Sadıqov (2, s. 440), F. İbrahimov (14), H. Əlizadə, L. Qasımova (34), R. Mahmudova (35), Ə. Abbasov (2), İ. Cəbrayılov (5), H. Əhmədov (8), M. İlyasov (15, s. 107-123), İ. Əliyev (10, s. 7-11), A. Əhmədov (7, s. 37-35), İ. Əhmədov (9) və digər müəlliflərin araşdırmaları bu qəbildəndir. Tədqiqat obyekti seçdiyimiz problem kompleks elmi tədqiqata cəlb olunmasa da, innovativ fəaliyyətin təhlilinə, müəllim hazırlığında innovasiyaların, innovativ texnologiyaların tətbiqinin lokal istiqamətlərinə də toxunuldu. Təhsil sistemində gedən modernləşmələrin, tətbiq olunan layihələrin nəticələrinin effektivliyini müəyyənləşdirən innovasiyaların, yeni təlim texnologiyalarının elmi əsasları, tətbiqi xüsusiyyətləri sərfnəzər edildi. Tədris prosesinin keyfiyyətli qurulmasında innovasiyaların rolunun yüksək dəyərləndirildiyi bu tədqiqatlarda ali təhsil kurrikulumunun pedaqoji əmək bazarının tələblərinə uyğunlaşdırılması problemi öyrənildi. İxtisaslararası inteqrasiya innovatik proses nümunəsi kimi nəzərdən keçirildi (19, s. 302).

Aparılmış elmi-tədqiqatların nəticələrinin analizi innovasiyanın mahiyyəti və məzmunu ilə əlaqədar aşağıdakı ümumiləşdirmələrə əsas verir:

Sosial-iqtisadi və mədəni həyat ən qədim zamanlardan başlayaraq yeniliklərə yiyələnmə sayəsində inkişaf etmişdir. İnnovasiya lüğəti mənada yenilik məzmunu kəsb etsə də, bunlar sinonim ifadələr olsa da, innovasiya keyfiyyətcə özündən əvvəlki oxşarından fərqlənir. Bazar iqtisadiyyatına əsaslanan müasir dövrdə innovasiya anlayışı sadəcə yenilik, isim olmayıb, həm də feldir. Yeni innovasiyalara doğru fəaliyyətə əsaslanan yaranış, tətbiq və effektiv nəticənin əldə olunmasına yönələn idarəetmədən ibarət mərhələlərin dinamik kompleksidir. Elmi-

texniki, texnoloji və təşkilati keyfiyyət dəyişikliklər innovasiya prosesinin mühüm tərkib hissəsidir. Yeniliklərin yaradılması, yayılması və istifadəsi dövrünü isə innovasiya tsikli adlandırmaq olar. Buradan belə bir məntiqi nəticə hasil etmək olar ki, innovasiya sözügedən proses olmaqla, istehsal-istehlak münasibətlərinin bütöv məcmusudur. Deməli, müəllim və təhsilalanların birgə fəaliyyətinin təşkilində, bu fəaliyyətin məqsəd, məzmun, metod və formalarında yeniliklərin tətbiq edilməsi innovasiyadır.

Təhsil sektorunda innovasiya anlayışı təlim və tərbiyənin məqsəd, məzmun, metod və formalarına köhnəlmiş yenilikləri əvəz edən yeniliklərin tətbiqi və idarə olunmasından ibarət proses anlamı kəsb edir. Qloballaşan dünya problemləri təhsildə də innovativ təmayüllərini müəyyən edir. Təlimdə humanistləşmə, bilik və bacarıqların formalaşmasına, təhsildə şəxsiyyətyönlü və peşəyönlülük keyfiyyətinə verilən yüksək tələblər, milli və beynəlxalq maraqları çulgalaşdıran mədəni-mənəvi dəyərlərə yönəltmə, bazar iqtisadiyyatının tələblərinə uyğun təhsil müəssisələri arası rəqabətlilik innovasiyaların yaradılmasını şərtləndirən təmayüllər kimi nəzərdən keçirilə bilər. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət strategiyası məhz bu məqsədə hədəflənmiş təmayülləri müəyyən etmişdir.

Son onilliyə nəzər salsaq, görərik ki, yeni konsepsiya və dövlət standartları qəbul olunmuşdur, alternativ tədris planları və yeni tip məktəblər yaranmışdır. İnnovasiyaların tətbiqinin nəticəsidir ki, son illərdə Azərbaycanda təhsilin bütün pillələri üçün yeni kurikulumlar hazırlanmış, modern məktəblər yaradılmışdır. Akademik nəşrlərdə texnika, texnologiya, əmək, təhsil və idarəetmə sahəsindəki yeniliklər "innovasiya" kimi təqdim edilmişdir. İnnovasiyalar elmi nailiyyətlərin və ən yaxşı təcrübələrin tətbiqinə əsaslanır (24, s. 456).

"İnnovasiya" daxilində müxtəlif istiqamətləri əhatə edən proqramları əks etdirən bir model tipi olaraq göstərilir. Hər şeydən əvvəl o, təhsilin məzmununda, habelə metodologiyasında innovasiya dəyişikliklərini nəzərdə tutur. Başqa sözlə desək, innovasiya-təlimin yeni məzmun, yeni təhsil texnologiyaları, təhsil prosesinin yeni formaları, fəal təlim metodlarıdır. Bundan əlavə, bu təhsilin keyfiyyətini düzgün şəkildə idarəetmə sistemidir, təhsilin keyfiyyət menecmenti və təhsil müəssisələrini idarə etməyə yeni yanaşmadır. Elm və onun strukturunun möhkəmliyini təhsil və innovasiya fəaliyyətinin inteqrasiyası kimi də qəbul etmək olar.

Diqqətə çatdırılan fakt və mülahizələri təhlil edərək innovasiya anlayışının etimologiyası ilə bağlı mülahizəmi təqdim etməyi məqsədəuyğun hesab edirəm:

— "innovasiya" anlayışının linqvistik mənşəcə latın dilinə mənsubluğu haqqında tədqiqatçıların mülahizələrinə dərin hörmət və ehtiramla yanaşıram. Lakin qeyd etmək istəyirəm ki, tədqiqatım dövründə elmi-pedaqoji dövriyyəyə cəlb etdiyim faktlar bu anlayışın latın dilinə mənsubluğu barədə iddianı inkar edir. Fikrimcə, "innovasiya" anlayış linqvistik kökünü latın dilindən yox, beş min illik tarixə malik şumer dilindəki "nou" (şumer lüğətindən digər dillərə tərcümə edəndə) sözündən almışdır. Türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün tövsiyəsi ilə Rza Nurun türklərin mənşəyinə həsr etdiyi və 1925-ci ildə nəşr etdirdiyi Türklər əsərində Madaylardan söz açaraq onların etnik mənşəyinin türk olması haqda, eləcə də madayların dilinin şumer dili ilə birliyi haqda qənaətləri innovasiya anlayışının linqvistik mənşəyi barədə fərqli mövqeyimizin doğruluğunu təsdiq edir.

XX əsrin birinci yarısında N.Y. Marrın linqvistik tədqiqatlarının nəticələrini ümumiləşdirən beş cildlik əsərlərində irəli sürdüyü "Vahid kök" nəzəriyyəsinə görə şumer dili və adət-ənənəsi yer üzünə miqrasiya etmiş tayfaların dilinə, o cümlədən latın dilinə də təsirsiz ötüşməmişdir. Etnik mənşəyi yəhudi olan Marr şumer dilini semit dilləri qrupuna aid dil kimi qələmə versə də, son dövrlərdə şumerlərin tarixi ilə bağlı aparılan tədqiqatlar bu mövqeyin obyektiv olmadığını, onun tədqiqatının antitürk mövqeyini nümayiş etdirir. Görkəmli şumeroloq

S. Kramerin "Tarix Şümerdən başlanır" mövzuda tədqiqatlarının sonunda etdiyi etiraf bir daha mülahizəmizin həqiqiliyini sübut (16).

Bütün ömrünü Sami xalqlarının əjdadlarının axtarışına həsr etmiş və müəyyən olduqdan sonra ki, şumerlərin dili kumilyativ dillərə (açar dil) aiddir və buna uyğun gələn dil coğrafiyası yalnız türk əsilli xalqlardır, müəllif dərin məyusluq keçirərək səmimi etirafını bildirmişdir. Şumer dilinin elementlərinin latın. ingilis, alman və s. dillər tərəfindən qəbul edilməsinə dair elmi tədqiqatların son nəticələri şumerlərin, bütövlükdə Böyük Şərqin tarixi roluna şübhə yeri qoymur.

Əgər orta əsrlərə nəzər salsaq, görərik ki, Şərqdə öyrənənlər və öyrədənlərin münasibətlərində, onların təhsilə yanaşmalarında həmişə yeniliklər olmuşdur. Elm anlayışı ərəbcədən "elm" – "bilmək, məlumatlı olmaq" mənalarını verir. Sözün kökünü isə "aləmə" təşkil edir. Alim ərəbcədən "üləma" sözündən əmələ gəlmişdir. "Müəllim" termininin kökünü ərəbcədən "elm" ifadəsindən götürür və «öyrədən» kimi tərcümə olunur. İnnovasiya termini Şərq dünyasından uzaq olsa da, الابتكار التربوي -əl ibtikarü əl tərbui "təhsil innovasiyası", yəni müəllimin təhsilə gətirdiyi yeniliy kimi tərcümə olunur (21, s. 266). Demək olar ki, pedaqoji innovasiyanın rüşeymi Şərq elminin apardığı tədqiqatların nəticəsi kimi qəbul edilməlidir. Bəzi tədqiqatlar pedaqoji innovasiyanı təhsilin intibahı kimi dəyərləndirirlər.

Şumer-madaylarln varisi olan Azərbaycan xalqı tarixin bütün mərhələlərində iqtisadiyyat, mədəniyyət sahələrində cahanşümul yeniliklərlə yanaşı, təhsil sahəsində də yeniliklərə imza atan xalq kimi tanınır. Hələ 1263-1284-cü illərdə Naxçıvanda inşa edilmiş iki mədrəsə haqqında fərmanda Azərbaycanda tətbiq olunan təhsil üsuluna aydınlıq gətirilmişdir. Müdərrisin (müəllimin) çalışqan tələbələri öz ruhani oğlu hesab etməsi, təlim zamanı tələbələrə əziyyət verməməsi, onların təbiətini, istedad və bilik dərəcəsini, hər birinin fərdi xüsusiyyətini nəzərə alaraq ona fənn təyin etməli olması, şəxsi xüsusiyyətinə müvafiq tapşırıq verməsi kimi şərtlər əsaslandırılmışdır. Həftədə bir gün tədris olunan dərslərin müzakirəsini keçirməli, öyrənilən dərslərin mənimsənilmə dərəcəsini yoxlamaq məqsədi ilə ayda bir dəfə imtahan təşkil etməli, dərsləri yaxşı oxuyan tələbələri başqalarına tanıtmalı olması göstərilmişdir. Təlim vasitələrindən bəhs edilmiş, istifadə olunan dərslik və ədəbiyyatın tekstoloji cəhətdən kompilyativliyi, yəni tədris olunan fənlərin hər birinin predmetinin öyrənilməsinə kömək edən "açar xarakterli olması"nın zəruriliyi vurgulanmışdır (11, s. 94-96). Məhz hələ XIII əsrdə Azərbaycanda təhsildə tətbiq olunan bu cəhətlər dünyada ilk dəfə olaraq at arabasını yaradan türkün tarix boyu yenilikçi-novator olmasından xəbər verir.

İnnovasiya anlayışı zaman və məkanca müxtəlif dillərdə fərqli ifadə formalarında işlədilsə də, şumer-türk dilindəki yenilik mənasını bu gündə saxlamaqdadır. İnnovasiya termini ingilis-türk, fransız-türk, alman-türk lüğətlərində yenilik, yenilənmə, icad, yeniliyi yaratmaq, köhnəni yenisi ilə əvəz etmək kimi tərcümə olunmuşdur. İnnovasiya sözünün anlamı türk sözlərinin izahlı etimoloji lüğətində aşağıdakı kimi qəbul edilmişdir: *"Biz dil öğrenme manzarasında yenilik görmek istiyoruz. Ve bu, bir topluluk olmadan inşa edilemeyen verimli platformlar olmadan katkıda bulunamayan açık dil kaynakları olmadan olamaz"* (23, s. 4).

Milli və beynəlxalq əhəmiyyətli ensiklopedik toplularda da "İnnovasiya - yüksək səmərəliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsi kimi təqdim olunur. İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşdirilmiş iş, texnoloji proses, həmçinin ictimai-sosial münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki və digər hallar hesab edilir. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir" (3, s. 286). Müxtəlif izahlı lüğətlərdə də innovasiya anlayışı "yeni",

"yeni yaradılmış və ya yeni meydana gələn", "son yaradılmış və ya köhnəni əvəz edən", "keçmişə istinadən irəli sürülən" yenilik kimi şərh edilir. Təhsil tarixi təsdiq edir ki, pedaqoji innovasiyalar hər zaman tədris prosesində olmuş, amma son dövrün elmi-texniki tərəqqisi və bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, daha intensiv şəkildə yaradılmağa və tətbiq olunmağa başlamışdır.

İngilis tədqiqatçıları da pedaqoji "innovation" sözünü geniş mənada təlim və təhsil prosesinin gedişini yaxşılaşdırmaq, bu prosesin nəticələrinin keyfiyyətini artırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik kimi izah edirlər.

Hər hansı istehsal prosesində istifadə olunan İstehsalat texnologiyasının idarə olunmasında tətbiq edilən yeniliyə "innovasiya" deyilir. Mövcud bir şeyə konstruktiv yanaşma nəticəsində innovator və onun komandası rəqiblər üzərində üstünlük qazanır və müvəqqəti inhisarı təmin edir. Niyə müvəqqəti? Çünki rəqiblər daha sonra bazara daxil olmaq yollarını axtarıb tapacaqlar. Belə ki, bir komanda formalaşmış tələblərə yönəldilmiş yeni məhsullar, digərləri isə yeni bazarlar yaradan texnoloji yeniliklər hazırlayacaqdır. Nəticə etibarı ilə bu sikl növbə ilə bir-birini əvəz edəcək, innovasiyaların yaranması, tətbiqi, idarə olunması və öz yerini daha mütərəqqi yeniliyə verməsini təmin edən demokratik rəqabət mühitini təmin edəcəkdir.

Pedaqoji innovasiya yeni təlim texnologiyalarının və təlim metodlarının tətbiqini zəruri edir. Müasir pedaqoji elmin və pedaqoji prosesin zənginləşməsi sahəsində görülən hər bir uğurlu addım onun nəzəri-metodik istiqamətlərinin də müasir metodlarla inkişaf etdirilməsini tələb edir. Daim yenilik axtarışında olan pedaqoji mühitin dövrün tələblərinə uyğunlaşdırılması, informasiya kommunikasiya texnologiyalarından istifadə etməklə innovativ təlim metodlarının tədrisin müvafiq bölmələrində, eləcə də ibtidai sinif müəllimlərinin hazırlığı prosesində praktiki tətbiqi üçün hüquqi zəmin yaradır. Müəllim hazırlığı praktikasında tətbiqi məqsədəuyğun hesab edilən hər bir pedaqoji yeniliyin mahiyyətinin və məzmununun tələbələrə çatdırılması bu baxımdan aktualdır.

"İnnovasiya"nın mahiyyəti və məzmununu analiz olunarkən hər bir innovativ pedaqoji yenilik ona qədər istifadədə olan, iqtisadiyyatda, elmi-texniki tərəqqidə baş verən sürətli keyfiyyət dəyişmələri ilə ayaqlaşa bilməməsi üzündən tədricən köhnələnərək əhəmiyyətini itirən yeniliklə vəhdətdə təqdim olunmalıdır. İlk növbədə köhnəlmiş və yeni innovasiyaların ümumi və xüsusi cəhətlərini qruplaşdırılmalı, zəruriliyi əsaslandırılmaqla mahiyyəti şərh olunmalıdır. Beynəlxalq termin olan "innovasiya"nın məzmun və mahiyyəti haqqında həm xarici, həm də Azərbaycan alimləri kifayət qədər maraqlı araşdırmalar aparmış, bu sahədə yeni elmi fikrin formalaşmasına nail olmuşlar.

Ə. Paşayev və F. Rüstəmovun birgə hazırladığı "Pedaqogika" dərs vəsaitində innovasiyanın məzmunu və mahiyyəti geniş açıqlanmışdır. "İnnovasiya" dedikdə geniş mənada təlim, təhsil-tərbiyə prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədi ilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür. İnnovasiya pedaqoji sistemdə irəli sürülmüş yeni ideyalar, inkişaf və inteqrasiya edən proseslər, müasir standartlara cavab verən vasitələr və ümumilikdə əldə olunan nəticələrdir (20, s. 107).

Psixopedaqoji tədqiqatlarda innovasiyalar məzmununa görə ekstensiv və intensiv yeniliklər kimi fərqləndirilir. Ayrı-ayrılıqda hər birinin məzmununa aydınlıq gətirilir. Hər yeniliyin innovasiya olmaması qənaətini bölüşən pedaqoji mövqeyin tərəfdarları, innovasiyanı keyfiyyətcə təkmilləşmiş, pedaqoji sistemdə yer almış ideyalar, proseslər, vasitələr və nəticələrin vəhdəti kimi qəbul edirlər. Cəmiyyətin problemlərini həll etməyə qabil olan insanda həyati bacarıqların formalaşdırılması yenilik elementini kimi təqdim edilir. Bəzi yeniliklər və mədəniyyətlər cəmiyyətin ənənəsinə əsaslanır. Fərdi şüurda ortaya çıxan innovativ fikirlər cəmiy-

yətdə yayılır və sosiokultural dəyişikliklərə imkan yaradır.

"İnnovasiya" anlayışı mədəniyyətin əvvəlki mərhələlərində olmayan inkişafının fenomenidir. Fəaliyyətin metodları, mexanizmləri, nəticələri, məzmununu ciddi şəkildə dəyişməklə "yenilik" şəklində ifadə olunmuşdur. «İnnovasiya» anlayışı yenilik və yeni prosesləri ifadə edir. Ətraf mühitlə əlaqəli dəyişikliklər prosesi nəzərə alınırsa, onun məzmununu sosial mədəniyyət sistemlərinin inkişafı prosesində dəyişən insan ehtiyaclarını ödəmək üçün yeni praktiki yenilik yaradarsa, praktikada geniş yayılarsa bunu innovasiya kimi qəbul etmək olar.

**Məqalənin aktuallığı.** "İnnovasiya" anlayışının daha əvvəl məlum olmayan təhsil ideyaları, elmi tədqiqat yeniliyi, təkmilləşdirilmiş, yenidən bərpa edilmiş ideyalar və dəyişən şəraitdə məqsədlərin yenidən qurulması kimi şərh edilmişdir. Elmi dövriyyədə olan pedaqoji-psixoloji əhəmiyyətli ədəbiyyatla ətraflı tanış olunmuş, müəlliflərin yaradıcılığına ehtiramla yanaşmış, onlardan səmərəli bəhrələnilmişdir. Pedaqoji innovasiya anlayışını cəmiyyətdə sosiokultural dəyişikliklərə imkan yaradan, problemləri həll etməyə qabil olan, həyati bacarıqlara malik şəxsiyyət yetişdirilməsini intensivləşdirirən, təhsilin keyfiyyət "menecmenti", tədris prosesinin idarə olunmasına rasional yanaşma kimi nəzərdən keçirilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə pedaqoji ədəbiyyatda "innovasiya" anlayışının mahiyyəti və məzmunu araşdırılmış, nəzəri əsasları müəyyənləşdirilmiş, innovativ pedaqoji fəaliyyətin məzmununu, texnologiyası, təşkili forması səciyyələndirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin nəzəri əhəmiyyəti "innovasiya"nın nəzəri bazasını daha da təkmilləşdirmək baxımından əhəmiyyətli, yazılacaq yeni əsərlərdə istifadə imkanları ilə müəyyənləşir.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika . Bakı, 2010, 34 s.
2. Abasov Ə.S. Müasir dövrün sosiomədəni problemləri. Bakı, 2006, 374 s.
3. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981, 170 s.
4. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2012, 132 s.
5. Cəbrayılov İ.H. Müəllim kadrları hazırlayan ali məktəblərdə "Azərbaycan tarixi" təliminin müasir problemləri. Bakı, 2004, 63 s.
6. Əhmədov A. Ümumtəhsil sistemində kurikulum islahatı. Real nəticələrə doğru. ARTNTP. Kurikulumların hazırlanmsı və tədbiqi məsələləri. Bakı, 2018, s. 37-53.
7. Əhmədov H.H. Pedaqogika. Bakı, 2006, 295 s.
8. Əhmədov, İ. İnnovasiya nədir? "Azərbaycan müəllim" qəz., 2014, 31 yanvar.
9. Əliyev İ.Z. Qloballaşma dövründə Azərbaycanda orta məktəb məzunlarının təhsil və məşğulluq problemləri. Bakı, 2010, 51 s.
10. Əliyava N. Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti. Bakı, 2015, 157 s.
11. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Psixopedaqoji araşdırmalar. Bakı, 2001, 162 s.
12. Həsənli O.Q. Sosial psixopedaqogikada istedadlı uşaqlar problemi. Bakı, 2011, 391 s.
13. İbrahimov F.N. Pedaqogika. Bakı, 2013, 706 s.
14. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, 2018, 207 s.
15. Kazımlı X. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Bakı, 2014.
16. Qasımova L.N. Pedaqogika. Bakı, 2003, 536 s.
17. Mahmudova R.M. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı,

2005, 136 s.
18. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010, 516 s.
19. Paşayev Ə.X. Pedaqogika. Yeni kurs: Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı, 2002, 512 s.
20. Sadıqlı T. N. Qasımov Azərbaycanca-ərəbcə lüğət. Təbriz, 2010, 431 s.
21. Sadıqov F. B. Pedaqogika. Bakı, 2008, 448 s.
22. Mehmet Şişman. Eğitim bilimine giriş. Ankara, 2020, 408 s.
23. Бородулин В.И. Иллюстрированный энциклопедический словарь. М., 2005, 912 с.
24. Нечаев В. М. Энциклопедия права. в 86 т. (82 т. и 4 доп.). СПб. 1890-1907.

**И.О. Мамедова**

## Сущность понятия «новаторство» в педагогической литературе

## Резюме

В данной статье рассматривается сущность и содержание инноваций в педагогической литературе. В статье обоснована актуальность инноваций с современных позиций, раскрыта сущность и содержание инноваций, описываются функции и обоснованы их виды. Дано понимание категории «инновации», которые рассматривается как конечный результат инновационной деятельности, реализованной в виде нового усовершенствованного экономического процесса, интегрированный в образовательный процесс. Описываются функции инноваций: канал воплощения в жизнь достижений человеческого интеллекта; расширяется круг производимых услуг, улучшается их качество, вовлекаются в новые производительные силы. Учитывая во внимание развитие потребностей, инновация представляется в виде интеллектуальной деятельности. Особое внимание уделено восприятию инновации в качестве категории, имеющей конкретное значение и определенный результат.

**I.O. Mammadova**

## The essence of the concept of "innovation" in pedagogical literature

## Summary

This article examines the essence and content of innovations in pedagogical literature. The article substantiates the relevance of innovations from modern positions, reveals the essence and content of innovations, describes the functions and substantiates their types. An understanding of the category of "innovation" is given, which is considered as the end result of innovation, implemented in the form of a new improved economic process, integrated into the educational process. The functions of innovations are described: a channel for the implementation of the achievements of human intelligence; the range of services produced is expanding, their quality is improving, and they are drawn into new productive forces. Taking into account the development of needs, innovation is presented as an intellectual activity. Particular attention is paid to the perception of innovation as a category that has a specific meaning and a certain result.

**Redaksiyaya daxil olub:** 06.04.2021